# NƏCƏFOV YUNİS İSA OĞLU



Nəcəfov Yunis İsa oğlu 31 avqust 1967-ci ildə Kəlbəcər rayonunda anadan olub. 1975-ci ildə Xanlar rayonunun Alabaşlı kəndində məktəbə gedib. 1985-ci ildə Goranboy rayonunun Qarqucaq kənd orta məktəbini bitirib. Hərbiyə olan marağı onu Bakı Ali Komandirlər məktəbinə gətirir. Yunis ikinci kursdan təhsilini Çelyabinsk Tank Məktəbində davam etdirir. O, 1989-cu ildə leytenant rütbəsi alır və oradakı hərbi hissələrin birində qulluğa başlayır. 1990-cı ildə 20 Yanvar faciəsi ilə bağlı siyasi çıxışlarına görə hərbi sahədən uzaqlaşdırılır. O, Bakıya qayıdır və Biləcəri Dəmiryol İdarəsində çalışmağa başlayır. Burada bir müddət mühəndis işləyir. O, idmanda da böyük həvəs göstərirdi. Sambo üzrə idman ustalığına namizəd idi. O, 1991-ci ildə könüllü olaraq cəbhəyə yollanır və 701 saylı hərbi hissədə bölük komandiri kimi xidməti vəzifəsinə başlayır. Cəsur döyüşçü Kərkicahan, Malıbəyli kəndlərinin, Şuşa şəhərinin alınmasında iştirak edir. Bir müddətdən sonra onu, döyüşə yeni əsgərlər hazırlamaq məqsədilə Bakıya göndərirlər. Şuşa və Laçın rayonları ağır sınaqlarla üz-üzə qalanda Nəcəfov Yunis İsa oğlu yenidən cəbhəyə qayıdır. O, Kəlbəcər kəndlərinin müdafiəsində iştirak edir, bir neçə kəndin geri alınmasında igidlik göstərir. Baş leytenent Nəcəfov Yunis İsa oğlunun son döyüşü 24 avqust 1992-ci ildə olur. O, Vəng kəndinin azad olunması uğrunda gedən döyüşlərdə böyük rəşadət göstərərək, şəhid olur. Goranboy rayonunun Qarqucaq kəndində dəfn edilmişdir. Subay idi. Azərbaycan Resbublikası Prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı fərmanı ilə baş leytenanat Nəcəfov Yunis İsa oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdir. Goranboy rayonunda və Biləcəri qəsəbəsində büstü qoyulmuşdur. Goranboy rayonu Qarqucaq kənd orta məktəbi 1994-cü ildən Milli Qəhrəmanın adını daşıyır.